ABB Invest

# "ABB-İnvest İnvestisiya Şirkəti" QSC 2024-cü il üzrə açıqlamalı olduğu məlumatlar

# 2024-cü il üzrə idarəetmə orqanları və vəzifəli şəxslər, onların əsas və əlavə iş yerləri:

| İdarəetmə orqanının adı | Vəzifəli şəxsin A.S.A | Əsas iş yeri | Əlavə iş yeri | Tel: | E-poçt |
|---|---|---|---|---|---|
| Müşahidə Şurası | İlham Həbibullayev | “Azərbaycan Beynəlxalq Bankı” ASC | “ABB-İnvest İnvestisiya Şirkəti”QSC | +994 493 00 91 | office@abbinvest.az |
| Müşahidə Şurası | Rövşən Cavadov | “Azərbaycan Beynəlxalq Bankı” ASC | “ABB-İnvest İnvestisiya Şirkəti”QSC | +994 493 00 91 | office@abbinvest.az |
| Müşahidə Şurası | Məcid Məmmədov | “Azərbaycan Beynəlxalq Bankı” ASC | “ABB-İnvest İnvestisiya Şirkəti”QSC | +994 493 00 91 | office@abbinvest.az |
| İcraçı direktor | Nadir Babazadə | “ABB-İnvest İnvestisiya Şirkəti”QSC | Milli Depozit Mərkəzi | +994 493 00 91 | office@abbinvest.az |

**İdarəetmə orqanlarının hər bir üzvünə verilə ödənişlər - 2024-cü il üzrə kənar auditor tərəfindən yoxlanılmış illik maliyyə hesabatında əks etdirilmişdir**

| Təhsil və ixtisas barədə məlumat | |
|---|---|
| İlham Həbibullayev | 1977-ci ildə anadan olub. 1997-ci ildə BDU-nun Tarix fakültəsini bitirib. 2001-ci ildə İstanbul Universitetinin Sosial Elmlər İnstitutunda magistr dərəcəsi alıb. 2004-cü ildə isə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və kredit fakültəsindən məzun olub. Bank sektorunda 25 illik təcrübəyə malik İlham Həbibullayev ayrı-ayrı banklarda müxtəlif vəzifələrdə çalışıb. 2010-2017-ci illərdə "Expressbank" ASC-nin İdarə Heyəti sədrinin müavini, 2017-ci ildən 2019-cu ilin sentyabrına qədər həmin bankın İdarə Heyətinin sədri olub. 2019-cu ilin sentyabrından ABB-nin İdarə Heyəti sədrinin strateji layihələr üzrə müşaviri vəzifəsində çalışıb. 2020-ci ilin martından "ABB" ASC-nin İdarə Heyəti sədrinin birinci müavinidir.2020-ci ildən ABB-İnvest İnvestisiya Şirkəti QSC-də Müşahidə Şurasının sədridir. |
| Rövşən Cavadov | 1983-cü ildə anadan olmuşdur.<br>2000-2004-cü illər Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadi Münasibətlər fakültəsində təhsil alıb.<br>2004-2005-ci illər ABŞ-ın Klark Universitetinin Maliyyə üzrə magistr təhsilini alıb.<br>2006-2009-cu illər Azərbaycan Respublikası Dövlət Neft Fondunun İnvestisiya departamentində müxtəlif vəzifələrdə çalışıb. 2009-2014-cü illər Azərbaycan Respublikası Dövlət Neft Fondunun İnvestisiya departamentinin direktor müavini vəzifəsində çalışıb. 2014-2020-ci il 2 mart tarixinədək Azərbaycan Respublikası Dövlət Neft Fondunun İnvestisiya departamentinin direktoru vəzifəsində çalışıb.2 mart 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktorunun müavini vəzifəsinə təyin edilib. 2020-ci ildən ABB-İnvest İnvestisiya Şirkəti QSC-də Müşahidə Şurasının üzvüdür. |
| Məcid Məmmədov | 1981-ci ildə anadan olub.<br>Bakı Dövlət Universitetini Beynəlxalq münasibətlər üzrə bakalavr, Azərbaycan Dövlət İqtisad Universitetini Maliyyə ixtisası üzrə magistr dərəcəsi ilə bitirib. 2000-2001-ci illərdə ABŞ-ın Ruzvelt Universitetində mübadilə proqramında iştirak edib. Varvik Biznes Məktəbində MBA dərəcəsi alıb.<br>2005-ci ildən ayrı-ayrı biznes qurumlarında, o cümlədən Unibank-da müxtəlif vəzifələrdə çalışıb. 2019-cu ildən ABB-nin Müşahidə Şurasının müşaviri olub. 2020-ci ildən ABB İnvest şirkətinin Müşahidə Şurasının üzvüdür. |
| Nadir Babazadə | 1988-ci ildə anadan olub.<br>Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi İqtisadiyyat fakültəsinin Maliyyə və kredit ixtisasını bitirib. İspaniyada yerləşən İE Business School-da GXMBA proqramı üzrə MBA dərəcəsinə malikdir.<br>2019-cu ildə Unicapital İnvestisiya Şirkətində Baş menecer vəzifəsinə təyin edilmişdir. 2020-2021-ci illərdə Azərbaycan Beynəlxalq Bankında İdarə Heyəti Sədrinin müavinin müşaviri vəzifəsində çalışıb. 2020-ci ildən ABB İnvest İnvestisiya Şirkətinin İcraçı Direktoru vəzifəsində çalışır. |

| | |
|---|---|
| 2024-cü il üzrə Səhmdar kapitalının gəlirliliyi | 2024-cü il üzrə audit olunmuş maliyyə hesabatlarına əsasən, şirkətin il üzrə xalis mənfəəti 2.319.376 manat olmaqla, cəmi kapitalı 6.625.455 manat təşkil etmişdir |
| 2024-cü il üzrə cəlb edilmiş maliyyə vəsaitləri | 19.630.314 AZN cəlb edilmiş vəsait |
| 2024-cü il üzrə cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliyi | Növü,forması: adi, adlı, sənədsiz səhm |
| | Dövlət qeydiyyat nömrəsi: AZ1002022536 |
| | Sayı: 300 ədəd |
| | Nominal dəyəri: 10.000 (on min) AZN |
| | Mülkiyyətçilərin hüquqları: |
| | 1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Nizamnamə və digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada Cəmiyyətin idarə edilməsində iştirak etmək, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsən və ya səlahiyyətli nümayəndəsi vasitəsilə Səhmdarların ümumi yığıncaqlarında onun səlahiyyətinə aid olan bütün məsələlər üzrə səs hüququ ilə iştirak etmək, Cəmiyyətdə seçkili vəzifələrə seçmək və seçilmək; |
| | 2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə 1 (bir) dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq; |
| | 3. Azərbaycan Respublikasının qanunvericiliyi və Nizamnamə ilə müəyyən edilmiş tələblərə riayət etməklə özünə məxsus olan səhmləri satmaq, bağışlamaq və ya digər şəkildə özgəninkiləşdirmək; |
| | 4. Səhmdarlar arasında bölüşdürülməsi nəzərdə tutulmuş mənfəətin bir hissəsini (dividend) ona məxsus olan səhmlərin sayına mütənasib surətdə almaq; |
| | 5. Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlərin, o cümlədən Cəmiyyətin yerdə qalan əmlakının müəyyən bir hissəsinin (və ya onun pul ekvivalentinin) ona məxsus olan səhmlərin sayına mütənasib surətdə almaq; |
| | 6. Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının protokollarının (onlardan çıxarışların) və qərarlarının, habelə Cəmiyyətin digər idarəetmə orqanlarının qərarlarının surətlərini tələb etmək və almaq; |
| | 7. Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək, o cümlədən Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək; |
| | 8. Cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək; |
| | 9. Cəmiyyətin fəaliyyətinin kənar auditor tərəfindən yoxlanılmasını tələb etmək; |
| | 10. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Nizamnamə və qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqlara malik olmaq. |
| | Ödəniş müddəti: mövcud deyildir. |

ABB Invest

| | |
|---|---|
| 2024-cü il üzrə investisiyaların həcmi və mənbəyi | 19.876.228 AZN (Şirkətin vəsaiti və cəlb edilmiş vəsaitlər) |
| 2024-cü il üzrə təşkil və ya iştirak edilmiş ictimai layihələr barədə məlumat | “Nur” Uşaq evinə ziyarət |
| Reytinqlər barədə məlumat | Mövcud deyildir. |
| Daxili komitələr, onların əsas vəzifələri və tərkibi haqqında məlumat | Komitənin adı: Audit Komitəsi |
| | Tərkibi: Elgün Qurbanov, Taleh Nəhmədov, Rəsul Mənsimli |
| | Əsas vəzifələri: |
| | 1. Daxili audit şöbəsinin fəaliyyətini təşkil etmək, eləcə də onun fəaliyyətinə nəzarəti həyata keçirmək; |
| | 3. Şöbənin müdiri və əməkdaşlarının vəzifə təlimatını təsdiq etmək; |
| | 4. Daxili audit yoxlama və monitorinqləri həyata keçirəcək auditorlara (yoxlama qrupuna) yoxlama vəsiqələrinin verilməsini təmin etmək; |
| | 5. Şöbənin müdiri və əməkdaşlarının işə qəbul olunması və əmək haqqı məbləğləri, vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması və intizam tənbehinə cəlb edilməsi ilə bağlı Müşahidə Şurasına təkliflər vermək; |
| | 6. Daxili audit yoxlamalarının nəticələri və yoxlamaların nəticəsində aşkarlanan nöqsanların aradan qaldırılmasına, eyni zamanda daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək; |
| | 7. Kənar auditordan audit zamanı aşkar olunan mühüm nöqsanlar, faktlar və hadisələr haqqında məlumat(lar)ın Komitəyə dərhal verilməsini tələb etmək; |
| | 8. İnvestisiya şirkətinin uçot siyasətinin təkmilləşdirilməsinə nəzarət etmək; |
| | 9. İnvestisiya şirkətinin maliyyə hesabatlarının şəffaflığına, tamlığına, investisiya şirkətinin fəaliyyətinin qanunvericiliyə və “İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartları”nın tələblərinə, habelə investisiya şirkətinin daxili qaydalarına uyğunluğunun təmin edilməsinə nəzarət etmək; |
| | 10. İnvestisiya şirkətində daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin səmərəliliyinə dair kənar auditin və digər üçüncü tərəflərin tövsiyələrini nəzərdən keçirmək; |
| | 11. Daxili audit planlarını təsdiq edildikdən sonra 10 (on) iş günü ərzində Mərkəzi Banka təqdim etmək; |
| | 12. İl ərzində investisiya şirkətində aparılmış daxili audit yoxlamaları barədə hesabatı hər təqvim ili başa çatdıqdan sonra növbəti rübün sonunadək Mərkəzi Banka təqdim etmək, habelə Mərkəzi Bankın sorğusu ilə fərdi daxili audit yoxlaması barədə məlumatların təqdim edilməsini təmin etmək; |
| | |

| | |
|---|---|
| Daxili komitələr, onların əsas vəzifələri və tərkibi haqqında məlumat | 13. Daxili audit şöbəsinin əsasnaməsi və onun saxlanılması xərcləri haqqında Müşahidə Şurasına təklif vermək; |
| | 14. Kənar auditlə əlaqədar investisiya şirkətlərinin və onun törəmə təsərrüfat cəmiyyətlərinin fəaliyyətinə dair bütün əhəmiyyətli məlumatların, investisiya şirkəti sənədlərinin kənar auditora vaxtında və tam təqdim edilməsini təmin etmək; |
| | 15. Səhmdarların ümumi yığıncağının və ya Müşahidə Şurasının qərarı, habelə investisiya şirkətinin adi səhmlərinin 10 (on) faizindən artıq hissəsinə malik olan səhmdarların və ya icra orqanının tələbi əsasında İnvestisiya şirkətinin təsdiq edilmiş daxili audit planında nəzərdə tutulmamış daxili audit yoxlamasının həyata keçirilməsi ilə əlaqədar zəruri tədbirlər görmək. |
| | 16. Qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr. |
| Şirkət rəhbərliyində və təşkilati strukturunda baş verən əhəmiyyətli dəyişikliklər haqqında məlumat | 2024-cü il üzrə əhəmiyyətli dəyişiklik baş verməmişdir. |
| Son maliyyə ili üzrə auditini həyata keçirən kənar auditor haqqında məlumat | “Baker Tilly Audit Azərbaycan” QSC |
| Şirkətin filialları haqqında məlumat (adı, ünvanı, keçirdiyi xidmət (əməliyyat) növləri, açıldığı tarix və əlaqə rekvizitləri); | Mövcud deyildir |
| Şirkətin törəmə təsərrüfat cəmiyyətləri barədə məlumat (adı, göstərdiyi xidmətlər); | Mövcud deyildir |
| Şirkətin kapitalında müvafiq iştirak payına malik olan səhmdarlar və onların iştirak payları barədə məlumat | Səhmdar: Azərbaycan Beynəlxalq Bankı ASC |
| | İştirak payı: 100 % |

| | Aidiyyəti şəxs barədə məlumat | Əqdin mahiyyəti | Əqdin tarixi | Əqdin məbləği |
|---|---|---|---|---|
| Şirkətə aidiyyəti olan şəxslərlə aparılmış əməliyyatlara dair ümumi məlumatlar | Mülkü Məcəllənin 49-1.1.1. | İnvestisiya xidmətləri | 30.09.2022 | 1,278.25 |
| | Mülkü Məcəllənin 49-1.1.4. | İnvestisiya xidmətləri | 25.12.2020 | 527,522.66 |
| | Mülkü Məcəllənin 49-1.1.4. | İnvestisiya xidmətləri | 20.12.2024 | 282,675,60 |
| | Mülkü Məcəllənin 49-1.1.4. | İnvestisiya xidmətləri | 11.06.2024 | 500,000.00 |
| | Mülkü Məcəllənin 49-1.1.4. | Maliyyə xidmətləri | 18.03.2024 | 1,700,000.00 |
| | Mülkü Məcəllənin 49-1.1.4. | Maliyyə xidmətləri | 01.07.2024 | 521,074.03 |
| | Mülkü Məcəllənin 49-1.1.8 | İnvestisiya xidmətləri | 23.04.2021 | 1,702.87 |
| | Mülkü Məcəllənin 49-1.1.8 | İnvestisiya xidmətləri | 12.10.2021 | 297.86 |

| Xüsusi əhəmiyyətli əqdlər barədə məlumat | Əqdin məbləği | Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi |
|---|---|---|
| | 730,805,641.55 AZN (əqdlər məcmusu daxil) | Mövcud deyildir. |

## İnkişaf siyasəti

Strateji baxış: *Şirkətin stratji baxışı “Müştəri rəğbətinə əsaslanaraq və dayanıqlı biznes modeli quraraq ölkənin ən iri və səmərəli investisiya şirkəti olmaqdır!”*
Missiya Bəyanatı: *Şirkətin missiya bəyənatı “İnnovativ, əlçatan və şəffaf investisiya xidmətləri təklif etməklə müştərilərə maliyyə məqsədlərinə çatmaqda dəstək göstərməkdir!”*

Strateji hədəflər:
Pərakəndə və korporativ müştərilərin ticarət dövriyyəsi müvafiq olaraq 10 və 2 dəfə artırmaqla kapital bazarının aparıcı şirkətlər sırasına daxil olmaq;
İmtiyazlı müştəri sayını artırmaqla onların qiymətli kağızlar portfelini 20 dəfə artırılmasına nail olmaq;
Kapital bazarından müştərilər üçün vəsaitlərin cəlb edilməsi həcminə görə ölkənin aparıcı 2 şirkətindən birinə çevrilmək

## Müştərilərdən daxil olan şikayətlərin sayı, məzmunu və nəticələri barədə ümumiləşdirilmiş məlumat

**Şikayətlərin sayı:** *15*
**Şikayətlərin məzmunu:** *İnvestisiya xidmətlərinin göstərilməsi üzrə olmaqla müxtəlif məzmunlu*
**Nəticələr:** *Bütün müraciətlər cavablandırılmış və əsaslı olan müraciətlər üzrə müştərii şikayətləri aradan qaldırılmaqla təmin edilmişdir.*

ABB Invest

Cəfər Cabbarlı küçəsi 609,
Globus Center, 8-ci mərtəbə
www.abbinvest.az
office@abbinvest.az
+994 50 268 33 99